Funded by the European Union

# Azərbaycanda həssas qrupların hüquqlarının müdafiəsi

**İcra müddəti:** 01.01.2021 - 31.12.2023

**ŞT ölkələri:**

Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 2 000 000

**Ümumi büdcə:** € 2 108 881

**İcraçı təşkilat(lar):**

UNITED NATIONS HIGH COMMISSIONER FOR HUMAN RIGHTS

Funded by the European Union

**Sosial media hesablarına keçidlər:**

facebook.com/Resurs-M%C9%99rk%C9%99zi-Resource-Center-276158269580799/, https://twitter.com/ResursRk, instagram.com/resursmerkezi/,

**Internet səhifəsi:** www.ohchr.org

**Layihənin təsviri:**

Layihənin əsas məqsədi vətəndaş cəmiyyəti təşkilatları (VTC-lər), insan hüquqları müdafiəçiləri və hüquq cəmiyyəti nümayəndələrinin insan hüquqları sahəsində potensialının artırılması və həssas qruplardan olan şəxslərin hüquqlarının müdafiəsi ehtiyaclarına töhfə verməkdir. Layihə çərçivəsində BMT İHAK əsasən BMT-nin insan hüquqları mexanizmləri mövzusu daxil olmaqla VTC-lər, insan hüquqları müdafiəçiləri və hüquqşünaslar üçün vacib insan hüquqları mövzularında müxtəlif təlimlər təşkil edir. Potensialın artırılması komponentinin bir hissəsi olaraq tərcümə edilərək çap edilmiş təlim materialları və nəşrlər VCT-lər, insan hüquqları müdafiəçiləri və hüquqşünasları insan hüquqları mövzusunda vacib məlumatla təmin edir. Bundan əlavə, layihənin digər əsas komponenti VCT-lərə insan hüquqlarının milli və beynəlxalq təşviqatı sahəsində fəaliyyətinə dəstəyin göstərilməsi məqsədini daşıyır. Həmçinin, layihə, ölkədə mülki işlərdə hüquqi yardımın formalaşdırılmasını təşviq etməklə, o cümlədən Bakı şəhəri və regionlarda həssas qruplardan olan şəxslərə ödənişsiz hüquqi yardım göstərməklə, həssas qruplardan olan şəxslərin ədalət mühakiməsinə çatımlılığının yüksəldilməsinə töhfə verir.

**Gözlənilən nəticələr:**

ER 1. 350 VCT-lər, hüquq müdafiəçiləri və hüquqşünaların insan hüquqların pozulma hallarının monitorinqi, sənədləşdirilməsi və  hesabatların hazırlanması, hüquq və demokratiyanın təşviqində potensialın gücləndirilməsi;
ER 2. Beynəlxalq insan hüquqları sisteminə dair vəsaitlərin azərbaycan dilində hazırlanması və paylanması;
ER 3. VCT-lər, hüquq müdafiəçiləri və hüquqşünasların öz təlim və digər tədbirlərini təşkil etmələri üçün ödənişsiz məkan və resurslarla təmin edilməsi;
ER 4. VCT-lər, hüquq müdafiəçiləri və hüquqşünaslara keyfiyyətli alternativ hesabatların hazırlanması və onların BMT-nin insan hüquqları mexanizmlərinə təqdim edilməsi məqsədilə dəstəyin göstərilməsi;
ER 5. VCT-lər, hüquq müdafiəçiləri və hüquqşünaslara BMT-nin insan hüquqları mexanizmlərindən istifadə etməklə insan hüquqlarının təşviqi və müdafiəsində iştirakına maliyyə dəstəyi;
ER 6. Həssas qruplardan olan şəxslərin mülki işlərdə ödənişsiz hüquqi yardıma çıxışısının və pro bono hüquqi xidmətlərin təşviq edilməsi;
ER 7. 3,000-dən çox işdə Bakı və regionlarda həssas qruplardan olan şəxslərin ödənişsiz və yüksək keyfiyyətli hüquqi xidmətlərlə təmin edilməsi və hüquqları haqqında məlumatlılığının artırılması.